Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

Mingəçevir Dövlət Universiteti

MİNGƏÇEVİR
DÖVLƏT UNİVERSİTETİ

# Mingəçevir Dövlət Universiteti 2030:
# elmi-tədqiqat üzrə inkişaf strategiyası

*Mingəçevir Dövlət Universitetinin Elmi Şurası tərəfindən 11 iyul 2024-cü ildə (protokol № 10) yeni redaksiyada təsdiq edilmişdir.*

Mingəçevir 2024

**Ümumi müddəalar**

Tabeliyindən və statusundan asılı olmayaraq, hər bir ali təhsil müəssisəsinin əsas vəzifəsi, adından da göründüyü kimi, ilk növbədə, ali təhsil verməkdir. Lakin yalnız təhsil vermək kifayət deyil, çünki müasir dövrdə elmi-tədqiqat işlərinin aparılması, hər bir ali təhsil müəssisəsinin, xüsusilə də universitetin ümumi fəaliyyətinin ayrılmaz bir hissəsi halına gəlib. Təhsil və elmin birləşməsi, universitetlərin çağdaş cəmiyyətə verdiyi töhfənin ən vacib aspektlərindən biridir. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununda göstərildiyi kimi, universitetlər yalnız ali təhsilin bütün səviyyələri üzrə mütəxəssislər hazırlamaqla kifayətlənmir, eyni zamanda fundamental, nəzəri-metodoloji, pedaqoji-metodik və tətbiqi elmi tədqiqatlar aparmaqla cəmiyyətin inkişafına da öz töhfəsini verir. Bu da universitetlərin cəmiyyətin intellektual inkişafına təsirini artırır və onların sosial məsuliyyətini daha da vacib edir.

Eyni zamanda, Azərbaycan Respublikasının Prezidentinin 14 iyun 2016-cı il tarixli 271-VQ nömrəli Fərmanı ilə təsdiq olunmuş "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda da ali təhsil müəssisələrinin yalnız tədrislə deyil, eyni zamanda elmi fəaliyyətlə də məşğul olduqları, elmi strukturlar vasitəsilə müxtəlif sahələrdə fundamental və tətbiqi tədqiqatlar aparmaqla elmi nailiyyətlər əldə etdikləri qeyd olunur. Ali təhsil müəssisələrinin bu yanaşması, universitetləri cəmiyyətin inkişafına təsir göstərən mühüm intellektual mərkəzlərə çevirir. Elmi fəaliyyətin tədrislə inteqrasiyası, tələbələrin həm nəzəri, həm də praktiki biliklərə yiyələnməsi üçün lazımi şərait yaradır.

Bu müddəalar, müasir dövrdə sürətlə irəliləyən və yaxın gələcəkdə paytaxtın qabaqcıl ali təhsil müəssisələri səviyyəsinə çatmağı hədəfləyən Mingəçevir Dövlət Universitetinin (MDU) fəaliyyətində daim diqqət mərkəzindədir. Hazırda MDU-da yalnız təhsil fəaliyyəti ilə məhdudlaşmayan, həmçinin elmi-innovativ fəaliyyətə də xüsusi önəm verilərək bu sahədə ardıcıl uğurlu addımlar atılır. Universitetin strategiyası bu ali təhsil müəssisəsini yeni dövrün universitetinə çevirməyi, Mingəçevir və ətraf regionların inkişafına töhfə verməyi, regional ekosistemin mühüm drayveri rolunu oynamağı, ölkənin qabaqcıl universitetləri səviyyəsində ali təhsil xidmətləri göstərməyi və nəticəyönümlü elmi tədqiqatların aparılmasına nail olmağı hədəfləyir. Bu məqsədlə, universitet yalnız akademik fəaliyyətlə kifayətlənməyib, həm də sənaye ilə əməkdaşlıq edərək tətbiqi elmləri inkişaf etdirmək, regional iqtisadiyyatı gücləndirmək və elmi işlərin nəticələrini real sektorla əlaqələndirmək istiqamətində fəaliyyət göstərir.

**MDU-nun missiyası, dayanıqlı inkişafın təmin edilməsinə töhfə verən yüksək ixtisaslı kadrlar yetişdirmək, elmi tədqiqatlar aparmaq və eyni zamanda cəmiyyətə faydalı sosial xidmətlər göstərməkdir.** Bu missiyanın həyata keçirilməsi üçün universitet

potensial resursları səmərəli şəkildə səfərbər etməyi, yerli və xarici universitetlərlə qarşılıqlı faydalı əməkdaşlıq qurmağı, sənaye ilə səmərəli işbirliyi yaratmağı, tələbələrə yeni dövrün tələblərinə uyğun bilik və bacarıqlar qazandırmağı və regional inkişafın hərəkətverici qüvvəsinə çevrilməyi planlaşdırır. Əlavə olaraq, universitetin strateji məqsədlərindən biri də regional, həmçinin beynəlxalq səviyyədə elmi əməkdaşlığı genişləndirmək və Mingəçevir və ətraf bölgələrin inkişafına müsbət təsir göstərən bir model yaratmaqdır.

Strategiya, ölkəmizin ixtisaslı insan resurslarına olan tələbatını ödəmək və gələcək nəsillərə yönəlik fəaliyyətlərə nail olmaq üçün təhsil, elmi tədqiqat və institusional infrastrukturu təkmilləşdirəcək dəyişiklikləri əks etdirir. Bu, yalnız universitetin inkişafı üçün deyil, həmçinin geniş miqyasda cəmiyyətin və iqtisadiyyatın inkişafına da müsbət təsir göstərəcəkdir. Universitetin qəbul etdiyi strateji plan, güclü bir idarəetmə sistemi qurmağa, tələbə və müəllim heyətinin daha yaxşı təlim almasına və elmi tədqiqatların daha yüksək səviyyədə aparılmasına imkan yaradacaq. Eyni zamanda, universitetin qarşısında duran əsas məqsəd, yüksək keyfiyyətli təhsil və elmi fəaliyyətin təşviqinə paralel olaraq, cəmiyyətin sosial və iqtisadi inkişafına dəyərli töhfələr verməkdir.

Bu gün ali təhsil müəssisələrinin qarşısında qoyulan tələblər köklü şəkildə dəyişmiş və universitetlərin fəaliyyətində yeni trendləri ön plana çıxarmışdır. Bu dəyişikliklər ali təhsil müəssisələrini yalnız bilik verən təşkilatlar deyil, həm də sosial və iqtisadi inkişafın aparıcı mərkəzləri kimi görməyə sövq edir. Xüsusilə, sənaye inqilablarının baş verdiyi və rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi bir dövrdə, universitetlərin üzərinə yeni və daha geniş missiya düşür. Bu kontekstdə, universitetlərin yalnız tədris və elmi fəaliyyətlə kifayətlənməsi, onların cəmiyyətə verdiyi töhfələrin zəif olmasına səbəb ola bilər.

Hazırda universitetə yalnız yüksək kvalifikasiyalı, ali təhsilli mütəxəssis “istehsal edən müəssisə” kimi baxmaq düzgün deyil. Müasir universitet yeni elmi ideyalar generatoru rolunu oynayan, insanların maddi və mənəvi rifah halının yaxşılaşması üçün elmi şəkildə əsaslandırılmış layihə təklifləri verən, ictimai həyatın və fəaliyyətin bütün sektorlarında (idarəetmə, iqtisadiyyat, təhsil, mədəniyyət və s.) elmi təhlilllər aparıb inkişafa əngəl olan problemləri aşkara çıxara bilən, ən başlıcası isə, bu problemlərin həlli üçün innovativ həll variantları təqdim edən intellektual “beyin mərkəzi” kimi bölgənin, ölkənin avanqardına çevrilməlidir. Bu baxımdan universitetdə təhsilalanlara təhsil verilməsi onlara yalnız mövcud biliklərin öyrədilməsindən-ötürülməsindən deyil, eyni zamanda elmi təhlillər aparıb, gələcəyin irəli sürə biləcəyi tələbləri proqnozlaşdırıb müəyyənləşdirmək və həmin tələblərə adekvat elmi cavab tədbirlərini axtarlb tapılmasını üsullarının öyrədilməsindən ibarətdir. Bu yanaşma “öyrənməyi öyrətmək” elmi konsepsiyasını ehtva edir.

**Vizyonumuz təhsil, tədqiqat və innovasiya sahəsində qabaqcıl mövqeyi ilə fərqlənən yeni dövrün universitetinə çevrilməkdir.** Məqsədimiz, yüksək keyfiyyətli ali təhsil xidmətləri göstərən və Azərbaycanın qabaqcıl milli universitetlərindən birinə çevrilmək, eyni zamanda, ölkənin və regionun inkişafına mühüm töhfələr verməkdir. Bu yolda, MDU inkişaf edən bir universitet olaraq, yalnız akademik biliklər təqdim etmək deyil, həmçinin cəmiyyətin ehtiyaclarına cavab verən elmi tədqiqatlar aparmaq, gəncləri elmə və innovasiyaya təşviq etmək, elmi inkişafı və texnologiyaları tətbiq edərək ölkənin iqtisadi və sosial həyatına faydalı olmaq məqsədini güdür.

Ümumilikdə, Mingəçevir Dövlət Universitetində elmi-tədqiqat fəaliyyəti Azərbaycan Respublikasının elm və təhsil sahəsində qəbul edilmiş normativ-hüquqi sənədlərinə, o cümlədən "Elm haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunlarına, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na, Nazirlər Kabinetinin 06 noyabr 1995-ci il tarixli, 242 nömrəli qərarı ilə təsdiq olunmuş "Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin təşkili və planlaşdırılması haqqında Əsasnamə"yə (Nazirlər Kabinetinin 29.03.2010-cu il tarixli, 053 nömrəli qərarı ilə edilmiş dəyişikliklər və əlavələr nəzərə alınmaqla), Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 12 noyabr 2012-ci il tatixli 78/9 nömrəli sərancamı ilə təsdiq edilmiş 1-Elm (illik) rəsmi statistik hesabatın Təsnifatına, Azərbaycan Respublikası təhsil nazirinin 24.02.1994-cü il tarixli, 113 nömrəli əmri ilə təsdiq olunmuş "Professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodiki və digər işlərin növləri barədə" sənədə və 27.06.2014-cü il tarixli, 752 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində təhsilalanların elmi-tədqiqat işinin təşkili haqqında Əsasnamə"yə uyğun olaraq həyata keçiriliir.

**Mingəçevir Dövlət Universitetinin stratejİ elmi-tədqiqat məqsədi – Ölkənin və bölgənin inkişafına davamlı töhfə verən nəticəyönümlü elmi-tədqiqat fəaliyyətləri həyata keçirmək potensialına sahib olmaqdır.**

**Bu stratejİ elmi-tədqiqat məqsədinə çatmaq üçün aşağıdakı 4 hədəf müəyyənləşdirilmişdir:**

***Strateji hədəf 1 – Elmi kadr potensialını inkişaf etdirmək, elm və təhsilin inteqrasiyasını gücləndirmək***

***Bunun üçün aşağıdakı strateji fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur:***

– Akademik heyətin tərkibində elmi dərəcəyə və elmi ada malik olan kadrların sayını artırmaq məqsədilə, müvafiq sahələrdə təcrübəli və peşəkar alimləri cəlb edərək,

onların elm sahəsindəki fəaliyyətlərinin gücləndirilməsi və universitetin akademik səviyyəsinin yüksəldilməsi istiqamətində səylər göstərmək.

- Yerli və xarici nüfuzlu universitetlərdən yüksək təhsil və elmi təcrübəyə malik olan qonaq alimləri və mütəxəssisləri universitetə dəvət edərək, müxtəlif elmi sahələr üzrə müasir yanaşmaların və təcrübələrin paylaşılmasını təmin etmək, eyni zamanda beynəlxalq əlaqələrin gücləndirilməsi üçün geniş imkanlar yaratmaq.
- Regionun ehtiyaclarına uyğun olaraq və universitetin profilinə uyğun elmi istiqamətlər üzrə müvafiq ixtisas sahələrində doktorantura təhsil proqramlarını təşkil edərək, gənc tədqiqatçıların yüksək səviyyəli təhsil almasını və elmi potensiallarını inkişaf etdirmələrini təmin etmək.
- Gənc akademik heyət üzvlərini nüfuzlu yerli və xarici universitetlərdə doktorantura təhsili almalarını dəstəkləyərək, onların elmi biliklərini artırmaq və tədqiqat sahəsində daha yüksək səviyyəyə çatmalarına imkan yaratmaq.
- Akademik heyətin tədqiqat bacarıqlarını inkişaf etdirmək və onların yerli və beynəlxalq səviyyədə keçirilən təlimlər, seminarlar və təcrübə proqramlarına cəlb olunma səviyyəsini artırmaq məqsədilə, müvafiq tədbirlərin təşkilinə xüsusi diqqət yetirmək.
- Cəmiyyətin aktual inkişaf problemlərinə həsr olunan və multidisiplinar mövzularda təşkil edilən elmi-praktik konfranslar, seminarlar və digər elmi tədbirlərin sayını artıraraq, akademik mühitin müxtəlif sahələr üzrə elmi müzakirələrə və təcrübə paylaşımına açıq olmasını təmin etmək.
- Akademik heyətin universitet, respublika və beynəlxalq səviyyədə keçirilən elmi tədbirlərdə iştirak səviyyəsini yüksəldərək, onların elmi mühitə daha yaxından daxil olmalarını və tədqiqat fəaliyyətlərini beynəlxalq arenada tanıtmalarını təmin etmək.
- Universitetin ali təhsil və elmi-tədqiqat müəssisələri, araşdırma mərkəzləri ilə mövcud elmi əməkdaşlığını daha da gücləndirmək, həmçinin beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirakını artırmaq və birgə tədqiqat layihələrinin həyata keçirilməsini təşviq etmək.
- Akademik heyətin beynəlxalq elmi məlumat bazalarına çıxışını dəstəkləmək və onların müasir elmi tədqiqatları izləmək, yeni məlumatlarla tanış olmaq və bu bilikləri öz elmi fəaliyyətlərində tətbiq etmək imkanı yaratmaq.
- Akademik heyətin elmi tədqiqat işlərinin nəticələrinin tədris metodiki vasitələrdə istifadəsinin davamlılığını təmin edərək, bu nəticələrin tədris proqramlarına inteqrasiya olunmasını və gələcək nəsillərə müasir elmi biliklərin ötürülməsini təmin etmək.

- Müvafiq ixtisaslar üzrə dissertasiya işlərinin müdafiəsini təşkil etmək məqsədilə, universitetdə dissertasiya şurasının yaradılmasına nail olmaq və bu şura vasitəsilə elmi tədqiqatların yüksək keyfiyyətli müdafiəsini təmin etmək.
- Akademik heyətin nəticəyönümlü elmi fəaliyyətlərinin davamlılığını təşviq etmək və elmi araşdırmaların daha da inkişaf etdirilməsi üçün müxtəlif stimullaşdırıcı mexanizmlər tətbiq etmək, bununla da yüksək elmi nəticələrin əldə olunmasını dəstəkləmək.
- Akademik heyətin elmi-tədqiqat fəaliyyətinin infrastruktur və texnoloji təminatını gücləndirərək, müasir avadanlıq və texnologiyaların tətbiqini artırmaq və tədqiqatçıların daha effektiv və müasir metodlarla işləmələrini təmin etmək.

***Strateji hədəf 2 – Milli və beynəlxalq arenada elmi nəşrlərin keyfiyyətini və kəmiyyətini artırmaq, multidisiplinar xarakterli nüfuzlu beynəlxalq elmi jurnala və beynəlxalq elmi konfransa sahib olmaq.***

***Bunun üçün aşağıdakı strateji fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur:***

- Akademik heyətin nəticəyönümlü elmi fəaliyyətlərinin stimullaşdırılması mexanizmini daha da gücləndirmək məqsədilə, elmi məqalələrin milli və beynəlxalq nüfuzlu elmi nəşrlərdə çap olunmasına xüsusi diqqət yetirmək və bu məqalələrə edilən istinadların sayının artırılması, həmçinin bu istinadların keyfiyyətli və akademik mühitdə tanınan nəşrlərdən gəlməsi üçün sistemli təşviq və dəstək tədbirləri görmək.
- Akademik heyətin "Web of Science", "Scopus" və s. kimi nüfuzlu elmi məlumat bazalarına daxil olan jurnallarda məqalələrinin sayını artırmaq məqsədilə, müvafiq maarifləndirici və tərcümə xidmətləri ilə yanaşı, akademik heyətə xüsusi təlimlər, seminarlar və dəstək tədbirləri təşkil etmək, həmçinin onları bu bazalarda məqalə dərc etmək üçün lazımi məlumatlarla təmin etmək.
- Nüfuzlu beynəlxalq jurnallarda birgə məqalələrin çap edilməsi məqsədilə, akademik heyətin ölkədaxili və xarici tərəfdaş ali təhsil və elmi-tədqiqat müəssisələrinin tədqiqatçıları ilə elmi əməkdaşlığını gücləndirərək, qarşılıqlı faydalı tədqiqat sahələrində birgə işlər aparılmasını dəstəkləmək, həmçinin bu əməkdaşlıqları daha effektiv etmək üçün lazımi resursları təmin etmək.
- Müxtəlif istiqamətlər üzrə elmi fəaliyyət göstərən akademik heyət üzvlərindən ibarət müəllim-tədqiqatçı qrupları yaradaraq, bu qrupların birgə işləməsini təmin etməklə və müvafiq qaydada dəstəkləməklə, multidisiplinar xarakterli elmi məqalələrin

hazırlanmasına şərait yaratmaq və həmin məqalələrin nüfuzlu elmi nəşrlərdə dərc olunmasına nail olmaq.

- Akademik heyət üzvlərinin nüfuzlu beynəlxalq elmi jurnallarda dərc olunan məqalələrinin elmi cəmiyyətdə daha geniş şəkildə tanıdılması məqsədilə, həmin məqalələrə dair təbliğat işləri aparmaq, həmçinin tələbə və müəllimlərin iştirakı ilə müvafiq kafedralarda təqdimatlar təşkil edərək bu məqalələrin əhəmiyyətini və elmi mühitdəki rolunu vurğulamaq.
- Universitetin tarixində ilk multidisiplinar elmi jurnalın təsis edilməsi və onun qeydiyyatdan keçirilməsi məqsədilə, müxtəlif elmi sahələrdən mütəxəssisləri cəlb edərək jurnalı geniş auditoriyaya təqdim etmək və akademik mühitdə elmi müzakirələrin intensivləşməsini təmin edəcək şərait yaratmaq.
- İlk dəfə təsis olunan jurnalın müstəqil internet səhifəsini yaratmaqla yanaşı, bu jurnalı dövri olaraq nəşr etməyi təmin edərək, jurnalın elmi icmalarda tanınmasını və müvafiq sahələrdəki ən son tədqiqatların təqdim olunmasını təşkil etmək.
- Yeni təsis edilmiş jurnalın fəaliyyətinin daha geniş təsir dairəsinə yayılması məqsədilə, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasında məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilməsini təmin etmək və jurnalın akademik ictimaiyyətdə etibarının artırılmasına nail olmaq.
- Jurnalın beynəlxalq nüfuzlu indekslərə uyğun fəaliyyət göstərməsini təmin etmək, həmçinin "Web of Science" və "Scopus" kimi beynəlxalq elmi bazalara daxil olmasını təşkil etmək məqsədilə, jurnalın redaksiya qaydalarını və nəşr prosesini bu bazaların tələblərinə uyğunlaşdırmaq və keyfiyyətli tədqiqatları təqdim etmək.
- Yerli və xarici tərəfdaşların dəstəyi ilə universitet tarixində ilk multidisiplinar beynəlxalq elmi konfransın təsis edilməsini təşkil edərək, bu tədbirin elmi icmada böyük maraq doğurmasını və geniş təcrübə mübadiləsi platforması yaratmasını təmin etmək.
- Beynəlxalq elmi konfransın dövri olaraq keçirilməsini təmin etmək və təqdim olunan elmi məruzələrin müvafiq beynəlxalq bazalarda (məsələn, "Web of Science" və "Scopus") yerləşdirilməsi və bu məruzələrin daha geniş auditoriyaya təqdim olunması ilə konfransın elmi dəyərini artırmaq.

***Strateji hədəf 3 – Universiteti regionun konkret inkişaf problemlərinin həllinə töhfə verən "beyin mərkəzi"nə çevirmək, sifarişlər və qrantlar əsasında həyata keçirilən tədqiqat layihələrinin sayını artırmaq.***

***Bunun üçün aşağıdakı strateji fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur:***

- Müvafiq elmi istiqamətlər üzrə regionun inkişaf problemlərini dərindən araşdıran, bu problemlərin həlli üçün elmi əsaslara dayanan təkliflər və konkret həll yolları təqdim edən tədqiqat və tətbiq mərkəzlərini yaratmaq, eyni zamanda bu mərkəzlər vasitəsilə regional və milli səviyyədə müasir elmi yanaşmaların tətbiqini təmin etmək.
- Mərkəzlərin tədqiqatçı heyətinin elmi potensialını artırmaq, bu heyət üzvlərinin biliklərini və bacarıqlarını daha da inkişaf etdirərək, tədqiqat fəaliyyətlərində daha effektiv nəticələr əldə etmələrinə imkan yaratmaq, həmçinin gənc tədqiqatçılar üçün mentorluq və təcrübə proqramları təşkil etmək.
- Mərkəzlərin fəaliyyətində, milli və regional səviyyədə dövlət qurumları, özəl sektor və digər müvafiq təşkilatlarla əməkdaşlıq edərək, birgə elmi layihələr həyata keçirmək, konsaltinq xidmətləri göstərmək və elmi tədbirlər, təlimlər təşkil edərək elmi və praktiki məlumat mübadiləsini gücləndirmək.
- Hər bir mərkəzin müstəqil internet səhifələrini yaradaraq, bu səhifələr vasitəsilə mərkəzin tədqiqat nəticələrini, fəaliyyətlərini və inkişaflarını geniş auditoriya ilə paylaşmaq, beləliklə həm elmi ictimaiyyətə, həm də maraqlı tərəflərə açıq və şəffaf məlumat təqdim etmək.
- Elmi-tədqiqatların maliyyələşdirilməsi məqsədilə fəaliyyət göstərən fondlar və sifarişçi qurumlarla akademik heyət arasında düzgün və fasiləsiz kommunikasiya əlaqələrinin qurulmasına və bu əlaqələrin davamlı şəkildə inkişaf etdirilməsinə dəstək vermək, eyni zamanda elmi tədqiqatların dəstəklənməsi üçün əlavə maliyyə imkanlarının yaradılması.
- Tədqiqat layihələrinin həyata keçirilməsi məqsədilə fondlara və sifarişçi qurumlara elmi müraciətlərin aktivləşdirilməsi, bu müraciətlərin düzgün şəkildə yazılması və təqdim edilməsi üçün akademik heyətə dəstək vermək, layihələrin müvafiq təşkilatlar tərəfindən dəstəklənməsini təmin etmək.

***Strateji hədəf 4 – Magistratura və doktorantura səviyyələrində elmi fəaliyyətlərin keyfiyyətini yüksəltmək, "Tədqiqatçı tələbə" konsepsiyasını inkişaf etdirərək tələbələrin tədqiqat fəaliyyətlərində aktivliyini artırmaq.***

***Bunun üçün aşağıdakı strateji fəaliyyətlərin həyata keçirilməsi nəzərdə tutulur:***

- Magistratura və doktorantura səviyyələrində tədris planının hazırlanmasında, tədris edilən fənlərin daha çox tədqiqat yönümlü olmasına üstünlük verilməli, bu yolla tələbələrin və magistrantların elmi tədqiqatlara marağının artırılması, onların analitik və

tədqiqat bacarıqlarının inkişaf etdirilməsi məqsədilə müxtəlif elmi fəaliyyətlərə cəlb edilmələri təmin edilməlidir.

- Dissertasiya mövzularının müəyyənləşdirilməsi prosesində, bu mövzuların cəmiyyətin və müasir elmin qarşılaşdığı aktual problemlərə uyğunluğunu təmin edərək, tədqiqatların yalnız akademik cəhətdən deyil, həm də sosial və iqtisadi baxımdan əhəmiyyətli olmasına diqqət yetirilməlidir. Bu, həmçinin elmi tədqiqatların praktik tətbiqlərinə daha çox imkan yaradacaqdır.
- Magistrant və doktorantların elmi tədqiqat işlərinə rəhbərlik edəcək nüfuzlu yerli və xarici ali təhsil və elmi-tədqiqat müəssisələrindən təcrübəli və ixtisaslaşmış elmi rəhbərlərin seçilməsini təmin etmək, onların təcrübəsindən faydalanmaqla tədqiqat işlərinin keyfiyyətini yüksəltmək və beynəlxalq səviyyədə tanınan elmi nəticələrin əldə edilməsini təmin etmək.
- Təhsil alanların, xüsusilə magistrantların və doktorantların tədqiqat bacarıqlarını inkişaf etdirmək, onlara müasir elmi metodologiyalar və tədqiqat üsulları barədə təlimlər keçməklə, onların analitik düşünmə və problem həll etmə qabiliyyətlərini gücləndirmək və elmi işlərə daha dərindən yanaşmalarını təmin etmək.
- Universitetdə tələbə və magistrantlar arasında aktual elmi mövzularda müxtəlif konfranslar, seminarlar və elmi görüşlər təşkil etmək, bu tədbirlər vasitəsilə elmi müzakirələrin aparılmasını, yeni ideyaların paylaşılmasını və müasir elmi trendlərin təqdim olunmasını təmin etmək.
- MDU və tərəfdaş yerli və xarici universitetlər arasında magistrantlar üçün multidisiplinar xarakterli beynəlxalq elmi-praktik konfranslar təşkil etmək, beləliklə, müxtəlif sahələrdən olan gənc tədqiqatçıların bir araya gəlməsini və elmi müzakirələr aparmasını təmin etmək, bununla da akademik mühitin inkişafını dəstəkləmək.
- Elmi populyarlaşdırmaq, gənclərin elmə marağını artırmaq və yeni elmi nailiyyətləri cəmiyyətə tanıtmaq məqsədilə müntəzəm olaraq elmi tədbirlər, mühazirələr və təqdimatlar təşkil etmək, bununla yanaşı gənc tədqiqatçıların elmi işlərini geniş auditoriyaya təqdim etmələrinə şərait yaratmaq.
- Magistrant və doktorantların dissertasiya işlərinin nəticələrini daha geniş auditoriyaya çatdırmaq məqsədilə, bu nəticələrin müxtəlif elmi tədbirlərdə, xüsusilə poster sessiyalarında təqdim edilməsini təşkil etmək, beləliklə həm elmi ictimaiyyətə, həm də geniş kütləyə dissertasiya işlərinin elmi əhəmiyyətini və yeniliklərini tanıtmaq.
- Tələbə Elmi Cəmiyyətin fəaliyyətini daha da təkmilləşdirmək, onların tərkibində multidisiplinar tələbə tədqiqat qruplarının yaradılmasını və bu qrupların aktiv fəaliyyətini təmin etməklə, tələbələrin elmi fəaliyyətlərə cəlb edilməsini və bu

fəaliyyətlərin onların təhsil və gələcək karyeralarına müsbət təsir etməsini təmin etmək.

– Tələbələri elmi-tədqiqat layihələri çərçivəsində müxtəlif fəaliyyətlərə cəlb etmək, onların bu layihələrdə iştirak etmələrini təmin edərək, elmi biliklərinin və təcrübələrinin artırılmasına və praktiki problemləri həll etmə bacarıqlarının inkişafına imkan yaratmaq.
– Gəncləri elmi fəaliyyətə təşviq etmək və onları tədqiqat işlərinə cəlb etmək məqsədilə həvəsləndirici mexanizmlər tətbiq etmək, elmi mükafatlar, təqaüdlər və təşviq proqramları ilə gənclərin elmi tədqiqat sahəsində fəallığını artırmaq və onların potensiallarını maksimum dərəcədə inkişaf etdirmək.

# ELMİ-TƏDQİQAT ÜZRƏ ƏSAS PERFORMANS GÖSTƏRİCİLƏRİ

| **Əsas performans göstəriciləri** | **2030-cu il üçün hədəf** |
|---|---|
| Akademik heyətdə elmi dərəcəsi və elmi adları olanların xüsusi çəkisi, faiz | 50 |
| Elmi-tədqiqat laboratoriyalarının sayı, ədəd | 3 |
| 100 akademik heyət üzvünə düşən illik elmi məqalə sayı, ədəd | 120 |
| 100 akademik heyət üzvünə düşən illik elmi konfrans tezislərinin sayı, ədəd | 400 |
| "Web of Science" bazasında 100 akademik heyət üzvünə düşən illik məqalə sayı, ədəd | 8 |
| "Scopus" bazasında 100 akademik heyət üzvünə düşən illik məqalə sayı, ədəd | 9 |
| "Web of Science" bazasında son 5 ildə nəşr olunan məqalələrə istinadların sayı, ədəd | 100 |
| "Scopus" bazasında son 5 ildə nəşr olunan məqalələrə istinadların sayı, ədəd | 110 |
| Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi digər beynəlxalq xülasələndirmə və indeksləmə bazalarında 100 akademik heyət üzvünə düşən illik məqalə sayı, ədəd | 10 |
| Universitetin təsis etdiyi beynəlxalq səviyyəli dövri elmi konfransların sayı, ədəd | 3 |
| Universitetdə fəaliyyət göstərən tədqiqat və tətbiq mərkəzlərinin sayı, ədəd | 4 |
| Birgə tədqiqat layihələrinin sayı, ədəd | 10 |
| Universitetdə yerli sifarişlər və qrantlar əsasında həyata keçirilən tədqiqat layihələrinin sayı, ədəd | 5 |
| Beynəlxalq qrant əsaslı tədqiqat layihələrinin sayı, ədəd | 2 |
| Universitetdə fəaliyyət göstərən dissertasiya şuralarının sayı, ədəd | 1 |
| Elmi fəaliyyətin təşviq mexanizmlərindən faydalanan əməkdaşların xüsusi çəkisi, faiz | 80 |